"Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turana

Hörmətli Azər müəllim!

Bu ay mənim "Hüseyn Kürdoğlunun poetik dünyası" monoqrafiyam çapdan çıxacaq. Şairin poeziyası başqa aləmdir.

Təəssüf edirəm ki, bir çox şairlərin, eləcə də Hüseyn Kürdoğlunun yaradıcılığının əsas hissəsi və ya hamısı Sovet dövrünə düşdüyündən gənclərimizin əksəriyyəti kiril əlifbasını oxuya bilmirlər.

Odur ki, təklif edirəm qəzetinizin hər sayında dünyasını dəyişmiş görkəmli və tanınmış şairlərdən birinin poeziyasına yer ayırasınız.

Hörmətlə,

Qəzənfər Paşayev

*"Ədəbiyyat qəzeti" redaksiya heyətinin üzvü*

*10.01.2017*

Bal çəkən arıyam, şanım ondadır. Əzəlim ondadır, sonum ondadır. Bir mavi şüşədə canım ondadır. Mənim bu dağlarda bir həsrətim var.

**Hüseyn KÜRDOĞLU**

## OXU, QARATOYUQ

Oxu, qaratoyuq, min bir həvəslə,
Dinləyim nağməni yeddinci qatdan.
Şirin cəhcəhinlə könlümü səslə,
Oxu ilk bahardan, oxu həyatdan!

Bəlkə üzü dönmüş o dağlar qızı
Kövrəlib sorağa göndərib səni?
Bəlkə xəyalısan, bəlkə arzusu,
Sehr ilə bir quşa döndərib səni?!

O çaylı-çeşməli sıx ormanların
Qoynundan ayrılıb hara gəlmisən?!
Nədir bu şəhərlə əhdin-ilqarın,
Yoxsa həsrətimə çarə gəlmisən?!

Nə yaxşı gəlmisən, a sevdalı quş.
Nağmən o günlərin həzin töhfəsi!
Səni təbiətmi qara boyamış,
Yoxsa ilk eşqimin hicran gecəsi?!

Oxu! Keçən günlər bir-bir oyansın,
Kürdoğlu dağlardan aralansa da.
Oxu, bu həsrətə dözsün, dayansın,
Köksündə ürəyi paralansa da!

## MƏNİM BU DAĞLARDA BİR HƏSRƏTİM VAR

Qəlbim eşq oduna yandığı gündən
Mənim bu dağlarda bir həsrətim var.
Burdadır ağlayan xatirələrim,
Burda candan əziz əmanətim var.
Mənim bu dağlarda bir həsrətim var.

Bal çəkən arıyam, şanım ondadır,
Əzəlim ondadır, sonum ondadır.
Bir mavi şüşədə canım ondadır,
Mənim bu dağlarda bir həsrətim var.

Sanasan camalı bədr olmuş bir ay,
Saçı aydan axan qızılı bir çay.
Xəyalı çiynimdə çırpınan hümay,
Mənim bu dağlarda bir həsrətim var.

Onsuz yetim qalan düşgün bir səsəm,
Qaralmış çırağam, sönmüş nəfəsəm.
O qoymur dünyadan usanam, küsəm,
Mənim bu dağlarda bir həsrətim var.

Acısı şirindir, şirini acı,
Dar gündə dərdimin odur əlacı.
Leyliyə, Şirinə, Yaxşıya bacı,
Mənim bu dağlarda bir həsrətim var.

O gəzdiyi dağın dumanı gözəl,
Yaşıl baharından xəzanı gözəl,
Dərdi-qəmi gözəl, hicranı gözəl,
Mənim bu dağlarda bir həsrətim var.

Tanrı hifz eyləsin o sərvinazı,
Səpim ayağına dürrü, almazı.
Bir çalım doyunca verdiyi sazı,
Qanadı qırılmış məhəbbətim var,
Mənim bu dağlarda bir həsrətim var.

## BƏYƏNMİR MƏNİ

Bir leyli gözlünün oduna yandım,
Saralıb-soluram, bəyənmir məni.
Bircə yol qanrılıb yana baxanda
Min ilham alıram, bəyənmir məni.

Mənə əl eyləyib çağırır özü,
Çatılır qaşları, doluxur gözü.
Verdiyi vədəni, dediyi sözü
Yadına salıram, bəyənmir məni.

Fikirli oturur, fikirli durur,
Açılmış telini qatara vurur.
Baxır uzaqlara boynunu burur,
Qeydinə qalıram, bəyənmir məni.

Dinib danışmayır o dilbər sona,
Çəkdiyim cəfalar yetərmi sona.
Ayrısı çor desə, can deyir ona,
Mən qurban oluram, bəyənmir məni.

## YOL GEDƏ BİLMİRƏM OĞLUMLA QOŞA

Qısa bir yoxuşda sinəm təngiyir,
Nəbzim gah çoxalır, gah da səngiyir.
Yapışır qolumdan, o da ləngiyir,
Ayağım ilişir kəsəyə, daşa,
Yol gedə bilmirəm oğlumla qoşa.

Ona gərəksizlər mənə gərəkli,
Tərlan baxışları min bir diləkli.
Mən keçən günlüyəm, o gələcəkli.
Nə deyim ağ saça, nə deyim yaşa? -
Yol gedə bilmirəm oğlumla qoşa.

Mən qara deyirəm, oğlum ağ deyir,
Damla sandığıma gur bulaq deyir.
Hər şeyi təzədən yaradaq deyir,
Yoldaşlıq yaramır yaz ilə qışa,
Yol gedə bilmirəm oğlumla qoşa.

## KÖNÜL BAĞLADIM

Maral gəzər dağ üstə,
Bülbül uçar bağ üstə.
Niyə məndən qaçırsan,
Dağ çəkirsən dağ üstə.



Getmə, getmə, maralım,
Nə ki dərdin var, alım.
Gözünə düz baxmasam
Gözlərimdən saralım.

Sözün mənə qənd olar,
Rəqibə rişxənd olar.
Bülbül də gül bağında,
Bircə gülə bənd olar.

Qoşa xalın zil qara,
Kirpiyində mil qara.
İnanmasan eşqimə
And içirəm ilqara.

Sənə könül bağladım,
Çaylar kimi çağladım.
Mən səni bir duyğutək,
Ürəyimdə saxladım.

Sevgilini qınama,
İnanırsan sınama.
Dolanaram başına
Gəlin olsan anama.

## MƏHƏBBƏT YETİM QALANDA

Könül qırıq bir saz olar,
Hər teli bir Araz olar.
Şəvə saçlar bəyaz olar
Məhəbbət yetim qalanda.

Nələr çəkdi başım, nələr,
Bu dərdimə daşlar mələr.
Şivən salar xatirələr,
Məhəbbət yetim qalanda.

Kürdoğlu, döz yana-yana,
Qalan günlərini sana.
Ömür olur ögey ana,
Məhəbbət yetim qalanda.

## BİR PALID YANIR

Gecənin bağrında bir palıd yanır,
Meşədən aralı, bir dağ başında.
Alov dilim-dilim ərşə dayanır,
Palıdın bitdiyi bulaq başında.

O yalqız qocanı vurmuş ildırım,
Hələ çatmamışdı pöhrələr ona.
Elə bil alışır göy şırım-şırım,
Min illik bir ömür yetişir sona.

Yayın oğlan çağı nə sərin idi,
Kölgəsi dağların quzeyi kimi.
Palıdın yaddaşı od tutub indi,
Yanır xatirələr muzeyi kimi.
O palıd yandıqca sevən, sevilən
Neçə gənc ürəyin nağməsi yanır.
Alova baxdıqca eşidirəm mən,
Çoban tütəyinin naləsi yanır.

Uçur qığılcımlar ulduzlar kimi,
Orman səsə düşür, quşlar oyanır.
Bir kimsə yanmasın yalqızlar kimi,
Gecənin bağrında tək palıd yanır!..

## BƏNÖVŞƏ

Səninlə görüşüb öpüşməyincə
İnana bilmirəm yaza, bənövşə.
Anasız böyüyən körpə qız kimi
Neçin yad olmusan naza, bənövşə.

Ayrıldım bənövşə xallı sonadan,
Hicrandır bağrımı didib qanadan.
Sirdaş yaranmısan başdan-binadan
Şair qəlbi kimi saza, bənövşə!

Gəlsə Kürdoğlunun vəfasız yarı,
Səninlə görüşüb gəzsə dağları,
Bir qaldır başını sənsə bax barı,
O ceyran baxışlı qıza, bənövşə.

## YENƏ SƏN

*S. Vurğunun 90 illiyinə*

Zaman səni bulandıra bilmədi,
Büllur qaya bulağısan yenə sən.
Boz təpələr vüqarına ah çəkir,
Şeirimizin Şahdağısan yenə sən.

Söz eşqilə yaranmışıq, yaranrıq,
Karvanımız dayanmasın bir anlıq.
Qorxumuz yox qatılaşsa qaranlıq,
Bu karvanın çırağısan yenə sən.

Şeirimizdə inqilabsan, inqilab,
Savaşında həm nəşə var, həm əzab,
Sənət eşqi günəş boyda bir kitab,
Onun qızıl varağısan yenə sən.

Şərbətindən qədəh-qədəh içirik,
Heykəlinə baş endirib keçirik.
Nəsil-nəsil yaranırıq, köçürük,
Əziz könül qonağısan yenə sən.

Bütün dünya ülvi sözün möhtacı,
Başındadır günəş tacı, ay tacı.
Sözdür haqqın ən müqəddəs ağacı,
Onun ki, şah budağısan yenə sən,
Şeirimizin Şahdağısan yenə sən!

## YATDIQ OT TAYASINDA

Yatdıq ot tayasında bir vaxt kürək-kürəyə,
Ləkə düşməsin dedin müqəddəs bir diləyə.
Sübhə kimi bircə an yumulmadı gözümüz,
Ehtirasın alovu tufan saldı ürəyə.

O taya od tutaydı kaş yanıb kül olaydı,
Əsli-Kərəm eşqitək nağıllarda qalaydıq.
Qarışaydıq torpağa, dönəydik gül-çiçəyə,
Hər bahar bu çəməndə açılaydıq, solaydıq.

O gecənin səhəri bizə bir zülmət oldu,
Qismətimiz ömürlük ağlar məhəbbət oldu.
İblis əli qoymadı, qovuşmadıq vüsala,
Yasaq qoyduğun gecə amansız həsrət oldu.

Yatdıq ot tayasında bir vaxt kürək-kürəyə,
And verdin, ara çəkdin iki sevən ürəyə.

## ŞAİRLƏR

Məhəbbətdir bu dünyanın çırağı,
Məhəbbətə pərvanədir şairlər.
Məcnun ərəb səhrasında tək deyil,
Leyli deyə divanədir şairlər.

Ustadımız gözü yaşlı Füzuli,
Nalə çəkir əli yardan üzülü.
Söz eşqinə çıxdı beşqat yüz ili,
Bir nağıldır, əfsanədir şairlər.

"Xəmsə" yazan tilsimli bir dəryamı,
İmadəddin həqiqətmi, röyamı?
Bir yada sal Hafiz ilə Xəyyamı,
Əlində cam rindanədir şairlər.

Şair qədri bilən eldə şər olmaz,
Hər yaraqlı döyüş günü ər olmaz.
Yaxşı sözdür: hər torpaqda zər olmaz,
Üç dənədir, beş dənədir şairlər.

Asdırılır, yandırılır, soyulur,
Qara bağrı xəncər ilə oyulur.
Dönmür üzü, haqq aşiqi sayılır,
Babək kimi mərdanədir şairlər.

## QOCALMIŞAM

Bostanıma axan sular axmaz olur,
Qismətimə çıxan şikar çıxmaz olur.
Pəncərəmə baxan gözəl baxmaz olur,
Qocalmışam.
Yaxın dursam, köhlən mənə təpik çalır,
Büdrəyirəm, oğul-uşaq çəpik çalır.
Dürməyimə toyuq-cücə dimdik çalır.
Qocalmışam.

Bu yerlərdə şair qədri bilən hanı,
Söz eşqiylə xumarlanıb gülən hanı?
Sovqat tutub, görüşümə gələn hanı,
Qocalmışam.

Günlərimin yamanı var, qanığı var,
Ürəyimdə ümidlərin yanığı var.
Neçə nakam diləyimin donuğu var,
Qocalmışam.

Qaşım çaldır, saç-saqqalım qar kimi ağ,
Ölüm külək, mən şeirlə dolu varaq.
Bu gün-sabah gəlib qəfil aparacaq,
Qocalmışam.

## QAR DÜŞÜR

Bahara gül-çiçək, yaya bar-bəhər,
Son bahara qırov, qışa qar düşür.
İnsan da belədir, ömür-gün gedir,
Altmışı keçincə başa qar düşür.

Qocalıq dərdinin varmı çarəsi,
Dərgaha çağırır haqq minarəsi.
Budur qara günün ağ işarəsi,
Axırda kirpiyə, qaşa qar düşür.

Gəzsək də göylərin yeddi qatında,
Acizlik karvanın çathaçatında.
Ağ geyib yatırıq torpaq altında,
Məzarın üstündə daşa qar düşür.

## HƏYAT AĞACI

Barlıdır, ucadır həyat ağacı,
Bəhəri həm şirin, həm də ki acı.
Dırmanıb çıxırıq, ucalırıq biz,
Başına çatmamış qocalırıq biz.
Ordan xəyal kimi düşürük bir-bir,
Ağacın dibində ölüm müntəzir.
Göydə tutur bizi, gömür torpağa,
Təzə gələnlərsə çıxır budağa.
Bu cür ülfətdədir ölümlə həyat,
Ağacın başına çıxan yox, heyhat!